**RƏSUL RZA**

# *SƏKİL*
# *VƏ*
# *ÇƏKİL*

**Azərbaycan**

**Uşaq və Gənclər ədəbiyyatı Nəşriyyatı**

**Bakı 1955**



Sizə kimdən deyim mən,
İki tüklü küçükdən;
Birinin adı Səkil,
Birinin adı Çəkil.
Səkil özü qaraydı,
Ayaqları ağappaq.
Çəkil özü sarıydı,
Quyruğu ağdı ancaq.
Səkil xoş xasiyyətdi,
Hürməzdi nahaq yerə.
Çəkil yamanca bəddi,
Hürürdü sərçələrə.
Səkil Məstan pişiklə

Bir yerdə oynayardı.
Qonşu həyətlərdə də
Neçə yoldaşı vardı.
Çəkil ondan kiçikdi,
Yaman lovğa küçükdü.
Həm də yamanca tərsdi.
Əlinə bir şey keçsə
Heç kəsə göstərməzdi.
Bala ördək, bala qaz
Yaxın gələndə bir az
Tez qışqırardı:
— Çəkil!
Yox bu səninki deyil.
Buna görə də onun
Adı Çəkil qalmışdı.
Heyvanlar arasında
Belə bir ad almışdı.
Anaları alabaş
Ayırmışdı onları.
Getmişdi qorumağa
Sürüdə qoyunları.
Neçə-neçə ay keçdi,
Yaz sovuşdu, yay keçdi.
Dəyişdi xoş havalar,
Gəldi soyuq son bahar.
Bir gün Səkil dedi ki:



—Gəlsənə, biz, a qardaş,
Özümüzə ev tikək
İndidən, yavaş-yavaş.
Bu gün-sabah qış gələr.
Buzlu, şaxtalı bir qış.
Başımıza tökülər
Gecə-gündüz qar, yağış.
Qoy bir yerimiz olsun.
İsti və təmiz olsun.
Çəkil dedi:
— Gəl tikək;

Ancaq ki ayrı, tək, tək.
Səkil çox yalvardı ki:
Ayrı niyə, bir olaq.
İkimizə bəs eylər
Yaxşı, böyük bir otaq.
Yaşayaq bacı-qardaş
Bir yerdəcə mehriban.
Çəkil dedi:
— Yox, çəkil!
Ayrıldı bacısından.
Səkil əlacsız qalıb dedi:
—Sən deyən olsun.
Ancaq elə tikək ki,
Hündür olsun, gen olsun.
Rahat olsun özü də
Biz yatıb dincələndə.
Yerimiz dar olmasın
Qonağımız gələndə.
Qoy yaxşı, möhkəm olsun
Evləri duzdan tikək.
Çəkil dedi:
—Heç də yox!
Evləri buzdan tikək!
O dedi:
—Duzdan tikək!
Bu dedi:

— Buzdan tikək!
Sözləri düz gəlmədi.
Çəkil bütün gecəni



— Yox, yox, yox, buzdan —deyib,
Bir saat dincəlmədi.
Yuxusu da gəlmədi.
Səkil dedi:
—Yaxşı, kəs!
Ay söz anlamaz, ay tərs.
Sən buzdan tik, mən duzdan.
Ancaq ki, yaxın tikək.
Gecələr qorxumuzdan
Əsməyək, titrəməyək.
Çəkil dedi:
— Heç də yox.
Sən qorxursan, özün qorx.
Qorxu-zad bilmirəm mən.
Pişik, ördək, qaz, toyuq
Qorxur mənim səsimdən. —
Sözləri düz gəlmədi,
Neçə gün işlədilər,
Heç biri dincəlmədi.
Səkil duzdan ev tikdi.
Çəkil buzdan ev tikdi.
Səkilin duzdan evi

Möhkəm, hündür, böyükdü.
Evinin üstünəsə
Havar, qamış da tökdü.
Dedi:
— Sən də evinin
Üstünə qamış döşə.
Şaxtalı olmayacaq,
Bu havalar həmişə.
Yağış yağar, gün çıxar
Qamışın çox xeyri var.
Çəkil razı olmadı
Hələ bir az küsdü də.
Dedi:
— Buz olsun evin
Divarı da, üstü də.
Küçüklər bütün qışı
Bu evlərdə oldular,
Boran keçdi, qış getdi
Gəldi ilıq bir bahar.
Hava qızdı get-gedə
Qar qalmadı səkidə.
Bir gün Çəkil lap erkən
Çıxdı çölə evindən.
Oynadı butun günü.
Toz-torpağa buladı

Baş-gözünü, tükünü.
Gah Məstanla dalaşdı,
Gah palçıqa bulaşdı,



Gah qazları qovladı.
Gah da qurd-quş ovladı,
Gah küçəyə yüyürdü,
Gah sərçələrə hürdü,
Çil toyuğa sataşdı,
Çil xoruzla savaşdı;
Axır tamam yoruldu.
Bir tərəfdə uzandı.
Gün batdı, axşam oldu.
Ulduzlar göydə yandı.
Çöl, dar, dərə qaraldı.
Bizim Çəkil tək qaldı.
Bir xeyli müddət hələ
Çəkil uzandı belə.
Xumarlandı, nazlandı
Mürgülədi, oyandı.



Birdən diksindi, qalxdı,
O yan, bu yana baxdı.
Gördü ki, heç kəs yoxdur.
Hava xeyli soyuqdur.
Nə Məstan var, nə Səkil.
Bir ağız hürdü Çəkil;
Cavab verən olmadı.
Qaçdı evinə sarı.
Atılırdı, düşürdü
Qaçdıqca qulaqları,
Qaranlıqda qorxudan
Əsirdi dodaqları.
Tələsirdi evinə.
"Az qalıb, lap az qalıb"
Deyirdi öz-özünə,
O, sevinə-sevinə.
Yol boyu ayaqları
Hey əzilə-əzilə
Gəlib çatdı mənzilə.
Ancaq burda nə gördü!
Qəribə səhnə gördü.
Orda ki, buz ev vardı,
Şüşətək parlayardı.
İndi, hər yanı palçıq,
Kiçik bir gölməçə var.
Əriyib gedib tamam



Buz sütunlar, divarlar.
Buz evi əridib gün
Suya döndərib bütün.
Çəkil o yana baxdı,
Döndü bu yana baxdı.
İki damcı göz yaşı
Tüklü üzünə axdı.
Hara getsin, neyləsin!
Dərdini kimə desin!
Gündüz isti olsa da,
Gecə xeyli soyuqdu.
Dincəlib qızınmağa
İndi bir yeri yoxdu.
Çəkil o yana baxdı,

Döndü bu yana baxdı.
Bacısının evi də
Burdan xeyli uzaqdı.
Çəkil tir-tir əsirdi.
Soyuq onu kəsirdi.
Deyindi öz-özünə:
—Niyə qulaq asmadım
Mən, bacımın sözünə!
Heç olmazsa yan-yana
Olsaydı evlərimiz
İndi hayan olardıq
Biri-birimizə biz.
Yavaşdan hürə-hürə,
Hey deyinə-deyinə,
Çəkil yenə də baxdı
Suya dönmüş evinə.
Sonra yola düzəldi.
Öz bacısı Səkilin
Birbaş evinə gəldi.
Çəkil yolu gəlincə
Ulduzlar da yox oldu.
Zülmət hər yana doldu.
Külək də başlamışdı.
Göyün üzü bulutdu.
Zil qaranlıq hər yanı,
Hər bir tərəfi tutdu.
Şiddətləndi get-gedə

Həm soyuq, həm qaranlıq.
Çəkil bir daş götürüb.
Qapını döydü tıq-tıq.
Səs gəldi:
—Orda kimsən?
Çəkil yavaş dedi:
—Mən!
—Sən kimsən? Gecə yarı
Səs salıb oyadırsan
Evimdə yatanları?!
Çəkil dedi:
—Ay bacı,
Halım yamandır, yaman.
Evimi əridib gün;
Suya döndərib bütun.
Aç qapını, gəlim mən.
İsinim, dincəlim mən.
Yalvarıram mən sənə,
Yatmağa yer ver mənə.—
Qapını açdı Səkil,
Dedi:
—Çöldə dayanma!
Ayağını təmiz sil!
Qapını ört! Yubanma!
Şəlpəni üstünə at,
Qapının ağzında ət!
Çəkil dedi:

—Orda? yox.
Qorxuram! Xox, məni, xox!..
Səkil dedi:
—Çox gözəl.
İndiki elədir, gəl
Palazı üstünə at.
Pəncərə ağzında yat!
Çəkil yavaşdan hürüb
Dedi:
—Orda yatmaram.
Küləkdir. Uf, məni uf!..
Səkil dedi:
—Çox gözəl.
İndi ki, elədir gəl
Yorğanı üstünə at.
Ocağın yanında yat.
Çəkil dedi:
—Mən orda
Necə yatım, insafsız.
Ocaqda gözlərə bax,
Qorxuram! Cız, məni cız!..
Səkil baxdı Çəkilə.
Yazığı gəldi ona.
Yavaşdan gülə-gülə,
Çağırdı öz yanına.
Dedi:
— Genişdir otaq.
Di gəl mənimlə yataq.

Taxçada sür-sümük var,
Gətirmişdi uşaqlar.
Götür e, yəqin acsan.
Kiçik şkafı açsan
Çörək də var süd də var,
Yumşaq bir küt də var.
Çəkil dedi:
—Yox toxam.
Ancaq donmuşam tamam.
Taxçadakı yeməkdən
Yenə qapdı bir ovuc.
Tez soxuldu yatağa,
Dedi:
—Di quc məni, quc!
Bir də tərslik etmərəm,
Səndən uzaq getmərəm.
Məstanla dalaşmaram,
Palçığa bulaşmaram,
Qovmaram cücələri.
Gəzmərəm küçələri.
Banlasa da yüz kərə,
Çil xoruza hürmərəm.
Sözündən çıxmaram mən.
Gəl bağışla məni sən.
Təzə güllü yorğanı
Üstlərinə atdılar.
Səkil, Çəkil bu gecə
Qucaqlaşıb yatdılar.

Pəncərədən boylandı
Yaz günəşi bu səhər.
Gördü ki, qucaqlaşıb
Yatıb bizim küçüklər.
Tez yaydı bu xəbəri
Hər tərəfə, hər yana.
Toyuq xoruza dedi,
Xoruz dedi Məstana.
Məstan qazlara dedi,
Qazlar da ördəklərə.
Saxsağan duyuq düşdü,
Xəbər yaydı hər yana.
Yüyürüşüb gəldilər.
Min oyun çıxartdılar.
Bizim Səkil, Çəkili
Yuxudan oyatdılar.

Redaktoru Ə. Ziyatay

Rəssamı E. A s t a n i n

Bədii redaktoru M. Q a s ı m o v

Texn. redaktoru V. Q a v r i l o v a

Korrektoru T. B a ğ ı r o v a

Çapa imzalanmış 13/X11-1955-Çi

Formatı 70 x 92-0,75-2,05 ç. (Uş.-ngşr. v. 1). FQ S6529.

Tirajı 3OOO. Sifariş 379. Uşaqgəncnəşr. Bakı, Fioletov küçəsi 8.

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin "Qızıl Şərq" mətbəəsi. Bakı, Həzi Aslanov küçəsi, 90